Əliyeva Pərixanim Nəbi qızı
Bakı Slavyan Universiteti

FEİLİ SİFƏTİN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: feili sifət, substantivləşmə, morfoloji xüsusiyyətlər*
***Key words:** participle, substantiation, morphological features*
***Ключевые слова:** глагол прилагательное, субстантивация, морфологические признаки*

Azərbaycan ədəbi dilində feilin təsriflənən formaları ilə yanaşı, təsriflənməyən formaları da vardır ki, bunlar da məsdər, feli sifət və feili bağlamadır. Dilimizdə feili sifətə xas olan bir çox morfoloji xüsusiyyətlər vardır ki, onlardan biri də substantivləşmədir.

Substantivləşmə hadisəsi Azərbaycan dilində sifət, say və eləcə də felin təsriflənməyən formalarından biri olan feili sifətlərdə özünü göstərir. Felin təsriflənməyən formalarından biri olan feili sifət həm feilin, həm də sifətin əlamətlərini daşıyır. Belə ki, o feil kimi hərəkət bildirsə də, təsriflənən feillərdən fərqli olaraq əşyanın hərəkətlə bağlı əlamətini bildirir və əlamət bildirməsi baxımından sifətə bənzəyir ki, bu da onun sifət kimi substantivləşməsinə imkan yaradır. G.Abdullayeva yazır ki, "əşyanın hərəkətlə bağlı əlamətini bildirən təsriflənməyən feil formasına feili sifət deyilir. Feili sifət həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyır. Feili sifətlərdə feilə məxsus cəhətlər bunlardır: şərti olaraq zaman bildirir: daşmış (keçmiş z.) çay, danışan (indiki z.) tələbə, deyiləsi (gələcək z.) söz, və s. təsirli və təsirsiz olur: yazını yazan (təsirli), şəhərdə yaşayan (təsirsiz), növ bildirir: aldığım meyvə, açılan səhər, deyilən söz, ağlaşan uşaqlar və s. təsdiq və inkarda olur: yetişmiş-yetişməmiş (meyvə)" (1, s. 85). Feli sifətin sifətə bənzər xüsusiyyətlərindən biri də onun aid olduğu sözdən əvvəl gəlməsi, sintaktik baxımdan təyin olması və necə? nə cür? hansı? Suallarına cavab verməsidir. Ancaq feli sifət feilə məxsus əlamətləri də bildirərək zaman, növ də bildirir. Q.Kazımov feili sifətdən bəhs edərkən qeyd edir ki, "feili sifət feilin artibutiv-adyektiv formasıdır. Yəni feillər "feili sifət şəkilçiləri" adlandırdığımız bir sıra şəkilçiləri qəbul edərək, feillik xüsusiyyətlərini saxlamaqla yanaşı, sifətlərə yaxınlaşır, sifət xüsusiyyətləri də qazanır" (2, s. 276). Doğrudur, sifət feil kimi zaman bildirir, ancaq feili sifətlərdə zaman anlayışını ifadə etmək üçün xüsusi şəkilçi yoxdur, onlarda zaman anlayışı feili sifət şəkilçilərinin semantikası ilə əlaqəlidir. Məsələn, *-an*^{2} feili sifət şəkilçisi indiki zamanı, *-mış*^{4} feili sifət şəkilçisi keçmiş zaman, *-malı*^{2}, *- acaq*^{2}, *-ası*^{2} şəkilçiləri isə gələcək zaman bilidirir.

Müasir Azərbaycan dilində feili sifət şəkilçiləri aşağıdakılardır:

1. -an^2, 2. -mış^4, 3. –dıq^4, 4. -acaq^2, 5. -malı^2, 6. -ası^2, 7. –ar^2/-maz^2.

1. **– an^2** şəkilçisi feilin qrammatik məna növlərinə qoşulmaqla yanaşı, təsdiq və inkar, həmçinin təsirli və təsirsiz ola bilir. Məsələn, *ağlayan* qız məlum növdə, *yazılan* məktub məchul növdə, *döyüşən* ordu qarşılıq-birgəlik növdə, *oxutduran* adam icbar növdə işlənmişdir. *Danışılan* məsələ, *öyrənilən* dərs, *sevilən* uşaq və s. kimi feili sifətlər təsirsiz, yazdıran, danışdıran, öyrətdirən və s. kimi feili sifətləri isə təsirlidir. Feili sifətləri inkarda da işlətmək mümkündür. Məsələn, öyrənilən – öyrənilməyən, *yazdıran – yazdırmayan*, *döyüşən – döyüşməyən* və s. Feili sifət düzəldən bu şəkilçi indiki zaman mənalı feili sifətlər düzəldir.

2. **–mış^4** dörd cür yazılan bu şəkilçi keçmiş zaman mənalı feili sifətlər düzəldir. Bu şəkilçi də *an*^{2} şəkilçisi kimi təsirli və təsirsiz, təsdiq və inkarda olur və feilin müxtəlif qrammatik məna növlərinə artırıla bilir. Məsələn, *yazılmış* məktub, *deyilmiş* söz, *açılmış* qapı, *danışdırılmış* söhbət, *söylənilməmiş* fikir, *çağırılmamış* qonaq və s. Qeyd edək ki, *mış*^{4} şəkilçisi 4 cür yazılır və nəqli keçmiş şəkilçisi *mış*^{4} ilə, eləcə də feil formalarının rəvayət şəklinin ixtixar olunmuş forması ilə omonimlik təşkil edir. Bunları bir-birindən fərqləndirmək üçün onların işlənmə məqamlarına diqqət etmək lazımdır. Belə ki, feili sifət düzəldən *mış*^{4} şəkilçisi işlənmiş söz əlamət çalarlığı da bildirir. Məsələn, *yazılmış* məktub birləşməsində məktubun yazılmış olması diqqətə çatdırılır və necə? sualına cavab verir. Feilin nəqli keçmiş zaman şəkilçisi kimi işləndikdə isə hərəkətin keçmişə aid olduğunu bildirir. Məsələn, *Azərbaycanın iyirmi faiz torpaqları ermənilər tərəfindən işğal olunmuşdur*. Bu iki şəkilçini bir-birindən fərqləndirmək üçün bir mühüm faktı bilmək lazımdır ki, feili sifət sifət kimi isimdən əvvəl işlənir və əlamət bildirir və cümlədə daha çox təyin funksiyasında işlənir.

3. - **dıq^4** da *-mış*^{4} kimi keçmiş zaman mənalı feili sifətlər düzəldir. Bu şəkilçi isimin mənsubiyyət şəkilçiləri ilə işlənir. Məsələn, *yazdığım*, *yazdığın*, *yazdığı*, *yazdığımız*, *yazdığınız*, *yazdıqları* və s.

4. **-acaq^2** Müasir Azərbaycan dilində bu şəkilçi feillərdə qəti gələcək zaman şəkilçisi kimi də işlənir. Məsələn, Gələcək görüşlərimizdə problemli məsələləri həll etməliyik. Bu cümlədə *gələcək* sözü feili sifətdir. Qonaq komandanın oyunçuları sabah Azərbaycana *gələcəkdir*. Burada isə *gələcəkdir* sözü feilin gəti gələcək zamanındadır. Feili sifət və qəti gələcək zaman düzəldən *-acaq*^{2} şəkilçisi qrammatik şəkilçidir, ancaq feillərdən isim *-acaq*^{2} şəkilçisi leksik şəkilçidir. Məsələn, dayan feilindən dayanacaq, otur feilindən oturacaq

ismi düzəlmişdir. Bu şəkilçi dilimizdə əsasən gələcək zaman məzmunlu feili sifətlər düzəldir. Məsələn, gələcək gün, gediləcək yol, danışılacaq məsələ və s. B.Xəlilov *-acaq*[2] şəkilçisindən danışarkən onu məhsuldar şəkilçi hesab edərək qeyd edir ki, "məhsuldar şəkilçidir: oxuyacağım əsər, görəcəyim iş və s. *-acaq*[2] şəkilçisi hər üç şəxsin tək və cəmində mənsubiyyət şəkilçisini qəbul edərək aşağıdakı feili sifət şəkilçilərini formalaşdırmışdır.

Tək	Cəm
I acağım	acağımız
II acağın	acağınız
III acağı	acaqları" (3, s. 259).

5. **-malı**[2] şəkilçisi gələcək zaman məzmunlu feili sifətlər düzəldir. Bu şəkilçidən bəhs edən M.Hüseynzadə yazır ki, "-malı (məli) şəkilçisini, əsasən, təsdiq, bəzən də inkar feillərin üzərinə əlavə etdikdə feili sifətlər əmələ gəlir ki, bunlar da əşyanın və ya hadisənin keyfiyyətini və yaxud fərqləndirici xüsusiyyətini ifadə edir: *yeməli* xörək, *içməli* su, *oxumalı* kitab, *gəzməli* yer, *yeyilməli* şey, *görülməli* is, *oxunmalı* kitab və s" (4, s. 188). Qeyd edək ki, *-malı*[2] şəkilçisi həm də feilin vacib şəklini düzəldən şəkilçidir. Bu iki omonim şəkilçini bir-birindən fərqləndirmək üçün onların işlənmə məqamlarına diqqət yetirmə lazımdır. M.Hüseynzadə bunları fərqləndirmək üçün belə bir fikir irəli sürür ki, "şübhəsiz, bu feili sifətlər tərkib daxilindən çıxsa, artıq feilin vacib şəklini ifadə edəcəkdir, yəni tərkib daxilindəki sözlərin yeri dəyişdirilib, xörək yeməli, su içməli, kitab oxunmalı, bağ gəzməli və s. şəkildə işlədilərsə, həmin sözlər feilin vacib şəkli kimi qəbul eilməlidir. Bu şəkilçilər feilin inkarı ilə də feili sifət əmələ gətirir: *yeyilməməli* xörək, *içilməməli* su, *oxunmamalı* kitab və s." (4, s. 188).

6. **-asıq**[2] feili sifət şəkilçisi gələcək zaman bildirir. Bu şəkilçi feilin lazım şəklinin şəkilçisi ilə omonimlik yaradır. Hər iki şəkilçini bir-birindən ayırd etmək üçün yenə də onların işlənmə məqamlarına və verilən suallarına diqqət yetirmək lazımdır. Belə ki, əgər söz feili sifət düzəldən *asıq*[2] şəkilçisi qəbul etmişdirsə, həmin ifadə ilk növbədə necə? sualına cavab verməli, isimdən əvvəl gələrək onu təyin etməli, isimləşərək cümlədə mübtəda, tamamlıq vəzifələrində işlənməlidir. Məsələn, *yazılası* məktub, *görüləsi* işlər, *deyiləsi* sözlər və s. *Yazılasılar* stolun üstündədir. Bu cümlədə *yazılasılar* feili sifəti substantivləşərək mübtəda vəzifəsində işlədilmişdir. Lazım şəklinin şəkilçisi olduqda isə cümlədə xəbər funksiyasında işlənir. Məsələn, *Sabahkı iclasda idarənin müdiri təsdiqlənəsidir*.

7. **-ar**[2] , **-maz**[2] bu şəkilçi feil köklərinə qoşulduqda feili sifətlər yaranır. Qeyd edək ki, feili sifətin bu şəkilçisi də omonimlik xüsusiyyətinə malikdir, yəni qeyri-qəti gələcək zaman şəkilçisi -ar[2] və onun inkarı -maz[2] la, eləcə də feildən isim düzəldən *-ar* şəkilçisi ilə omonimlik təşkil edir. Məsələn, *Axar* sular duruldu. Burada *axar* sözü feili sifətdir, yəni *-ar* şəkilçisi feildən feili sifət yaratmışdır. Su *axar* çuxurunu tapar. Bu cümlədə isə *axar* feilin qeyri-qəti gələcək zamanındadır və *-ar* şəkilçisi qeyri-qəti gələcək zamanın şəkilçisidir. *Çapar* tezliklə xana xəbər gətirdi. Burada isə *-ar* şəkilçisi *çap* feilindən *çapar* ismi düzəltmişdir. Feildən isim düzəldən *-ar* qeyri-məhsuldar şəkilçidir və dilimizdə bu şəkilçi ilə düzələn isimlərə çox az sayda rast gəlmək olur. "Bunlar qeyri-qəti gələcəyin şəkilçiləri ilə bir kökdəndir. Təsdiq forması az işlənir və feili sifət xüsusiyyətini itirmək, sifətə çevilmək istiqamətində inkişaf edir: məsələn, *gülər* üz, *ağlar* uşaq, *axar* su və s. Lakin zəif şəkildə olsa da, feili sifət xüsusiyyəti var: *axar* su – *axmaz* su, *gülər* üz – *gülməz* üz" (5, s. 131). Qeyd edək ki, bu iki şəkilçi bir-birinə antonimdir. Məsələn, *anlaşılan – anlaşılmayan*, *axar – axmaz*, *yanar – yanmaz* və s. M.Hüseynzadə feili sifət düzəldən bu şəkilçinin xüsusiyyətlərindən bəhs edərkən xüsusi olaraq vurğulayır ki, həmin şəkilçilər daha çox sifətləşməyə meyillik var. "Qeyd etmək lazımdır ki, bu şəkilçilərlə düzələn feli sifətlərdə sifətləşmə meyli çox güclüdür. O biri feli sifətlərdən fərqli olaraq, beldə feli sifətlərdə əşyanın daimi əlamətini bildirmək keyfiyyəti olur ki, bu xüsusiyyət də əslində sifətlərə məxsus cəhətdir. Digər tərəfdən, belə feli sifətlər təsdiq və ya inkarda işlənmək, idarə etmək qabiliyyətini də tədricən itirir" (3, s. 187).

Feili sifətin feilə aid xüsusiyyətlərindən bəhs edərkən qeyd etmişdik iki, feili sifət feilin müxtəlif növlərinə qoşularaq əşyanın hərəkətlə bağlı əlamətini bildirir. Ancaq bütün feili sifət düzəldən şəkilçilər feilin növ şəkilçilərindən sonra işlənə bilmir. Buna görə də feilin növ şəkilçilərindən sonra işlənə bilən və ya işlənə bilməyən şəkilçiləri iki qrupa bölmək olar:

1-ci qrupa feilin növ şəkilçilərindən sonra işlənən şəkilçilər.

2-ci qrupa isə feilin növ şəkilçilərindən sonra işlənə bilməyən feili sifət düzəldən şəkilçilər.

Birinci qrupa daxil olan feili sifət düzəldən şəkilçilərə *-an*[2], *-mış*[4], *-dıq*[4], *-acaq*[2], ikinci qrupa daxil olanlara isə *-asıq*[2], *-malı*[2], *-ar*[2] *(-maz*[2]*)* şəkilçiləri daxildir.

"İkinci qrupa daxil olan feli sifətlər birinci qrupdan olan feli sifətlərə nisbətən feli məxsus xüsusiyyətləri zəif şəkildə mühafizə edib saxlayır və beləliklə, feldən düzələn feli sifətlərə yaxınlaşır" (6, s.76).

Müasir Azərbaycan dilində feili sifət düzəldən *-asıˀ* şəkilçisi inkar şəklində olan feillərə qoşula bilmir. Məsələn, *yazılası əsər* deyirik, ancaq *yazılması əsər* deyə bilmərik. Eyni hala biz *-malıˀ* şəkilçisi ilə işlənən feili sifətlərdə də rast gəlirik. Artıq qeyd etmişdik ki, adı çəkilən hər iki şəkilçi feilin şəkillərinin şəkilçiləri ilə omonimlik təşkil edir, yəni *asıˀ* feili sifət şəkilçisi lazım şəkli ilə, *-malıˀ* feili sifət şəkilçisi isə vacib şəklinin şəkilçisi ilə omonimdir. Fikrimizcə, sözü gedən hər ik şəkilçinin inkar formasının olmaması onların birincisinin lazımlılıq, ikincisinin isə vaciblik bildirməsdir. Digər tərəfdən feilin vacib və lazım şəkli də inkarda *-maˀ* şəkilçisi ilə düzələ bilmədiyi üçün *deyil* sözü ilə düzəlir. Vacib şəkli lazım şəkli ilə müqayisədə *-maˀ* həm şəkilçisi həm də *deyil* sözü ilə düzələ bildiyi üçün -malıˀ feili sifət şəkilçisi də hər ikisi ilə düzələ bilir. Məsələn, *görülməli* işlər – *görməməli* işlər, *deyilməli* söz – *deyilməməli* söz və s. Lazım şəkli isə ancaq *deyil* sözü ilə birlikdə inkarlıq bildirdiyi üçün *-asıˀ* şəkilçili feili sifətlər də inkarlıq şəkilçili feillərə demək olar ki, qoşula bilmir.

Feili sifət şəkilçilərindən bəhs edərkən qeyd etdik ki, bəzi feili sifət şəkilçiləri mənsubiyyət şəkilçiləri qəbul edə bilirlər, yəni mənsubiyyətə görə dəyişə bilirlər. Bu zaman onlar morfoloji baxımdan feili sifət olaraq qalsalar da, sintaktik cəhətdən təyin olmaqla yanaşı mübtəda, tamamlıq və xəbər də ola bilir. Feili sifət şəklçilərinin bu morfoloji xüsusiyyətlərini nəzərə alaraq onları da iki qrupa bölə bilərik:

1-ci qrupa daxil olan feili sifət şəkilçiləri mənsubiyyət şəkilçiləri ilə işlənə bilmirlər;

2-ci qrupa daxil olan feili sifət şəkilçiləri asanlıqla hər üç şəxsin tək və cəminin mənsubiyyət şəkilçilərini qəbul edə bilirlər.

1-ci qrupa daxil olan feili sifət şəkilçiləri *-anˀ, -mışˀ, -asıˀ, -malıˀ, -arˀ (-mazˀ)*dır ki, bu şəkilçilər mənsubiyyət şəkilçiləri ilə işlənə bilmirlər.

2-ci qrupa daxil olan feili sifət şəkilçləri asanlıqla mənsubiyyət şəkilçiləri qəbul edə bilirlər. Bu qrupa daxil olan feili sifət şəkilçilərinə *-dıqˀ* və *-acaqˀ* şəkilçiləri daxildir. Ancaq adı çəkilən hər iki şəkilçi arasında da mənsubiyyət şəkilçiləri ilə işlənmə imkanlarına görə də fərqlər vardır. Belə ki, *-dıqˀ* şəkilçisini mənsubiyyət şəkilçisi olmadan işlətmək mümkün deyildir. Məsələn, *pozduğum, pozduğun, pozduğu, pozduğumuz, pozduğunuz, pozduqları* və s. *Acaqˀ* şəkilçisi isə hər zaman deyil, müəyyən vəziyyətdə mənsubiyyət şəkilçiləri ilə işlənə bilir. Məsələn, *gələcək* gün, *oxunacaq* qəzet, *gələcəyimiz* gün – *oxuyacağımız* qəzet və s.

Feili sifət morfoloji baxımdan feil bəhsində öyrənilsə də onun morfoloji xüsusiyyətlərinə nəzər saldıqda aydın oldu ki, o, həm substantivləşə bilməklə sintaktik baxımdan mübtəda, tamamlıq, xəbər vəzifələrində işlənə bilər. Feili sifətlərin özlərinə xas olan morfoloji göstəriciləri, yəni şəklçiləri də vardır ki, onlardan müəyyən bir qrupu feilin şəkillərinin şəkilçiləri ilə omonimlik təşkil edir. Bundan başqa *-dıqˀ* feili sifət şəkilçisi demək olar ki, hər zaman mənsubiyyət şəkilçisi ilə işlənir ki, bu da həmin şəkilçini qəbul edən feili sifətlərin substnativləşməsinə imkan yaradır. Feili sifət şəkilçilərini şərh edərkən aydın olur ki, onlar zaman şəkilçisi qəbul etməsə də şəkilçilərin məzmununda zamanlıq anlayışı vardır. Belə ki, bir qrup şəkilçilər keçmiş zaman, digərləri indiki zaman, başqa qrup şəkilçilər gələcək zaman anlayışı ifadə edirlər. Ümumiyyətlə, feili sifət zəngin morfoloji xüsusiyyətlərə malikdir. Buna imkan yaradan amillərdən, fikrimizcə, ən mühümü onun iki əsas nitq hissəsnin – feil və sifətlərin xüsusiyyətlərini daşıya bilməsidir. İki əsas nitq hissəsinin xüsusiyyətlərini daşıması onun morfoloji baxımdan zəngin olmasına imkan yaratmışdır.

Ədəbiyyat:

1.Abdullayeva G. Müasir Azərbaycan dili. Morfologiya. II hissə. Bakı: Elm və təhsil, 2013, 308 s.

2.Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010, 400 s.

3.Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.

4.Xəlilov B. Müasir Azərbaycan dili. II hissə. Bakı: Papirus Np, 2016, 252 s.

5.https://media.turuz.com/Language/2013/0760-Fel-Fiil.pdf

6.Mirzəyeva H. Azərbaycan dilində feili sifət şəkilçilərinin bəzi xüsusiyyətləri haqqında. ADPİ-nin elmi əsərləri. Bakı: Pedaqogika və psixologiya,1966, № 6.

Morfological features of participle

Summary

The article deals with the morphological features of the participle. The participle is interpreted as the substantiation of the adjective, the suffix inherents in it. The article analyzes the morphological indicators of participle and their omonym formation and clarifies the development of participles and omonym suffixes.

Морфологические признаки причастий

Резюме

В статье рассматриваются морфологические особенности причастий. Причастие трактуется как обоснование прилагательного, присущего ему суффикса. В статье анализируются морфологические показатели причастия и их омонимообразования, уточняется развитие причастий и суффиксов омонимов.

Rəyçi: dos. Ş.Əhmədova